

Sevinc Nuruqızı

### ÇÖMÇƏ

Qazana girib
Dolaşsa bir az.
İnanın, orda
Heç bir şey qalmaz.

Hamı çığırar:
- Çömçə, ay çömçə.
Ordan yemək çək
Mənə bir nimçə.

Çömçə yeməyi
Daşıyar çölə.
Çalışar bizə
Yaxşı pay bölə.

Nə çox çəkər o
Nimçəyə, nə az.
Amma özünə
Yemək saxlamaz.



### BEŞ BARMAQ

Bir əlin beş barmağı
Götürdülər qarmağı.
Qarmağı çaya atdılar
Çaydan balıq çıxartdılar.
O alıb, tez əzizlədi
Bu alıb, tez təmizlədi.
Biri tavaya yağ atdı
Biri balığı qızartdı.
Çeçələ: -Ver yeyim, -dedi
- Sizə sağ ol, deyim, -dedi.
Balığın tıxı iynədi.
Görün bir ona neylədi.
Çeçələnin pisdir halı
Yığışıbdır qardaşları.
Biri tıxı təmizləyir
Biri onu əzizləyir.
Biri söyləyir nağılın
Biri deyir: -Tez dağılın.

### BİR ƏLİN BEŞ BARMAĞI

Bu barmaq qoca babadır
Bu barmaq qoca nənədir.
Bu atamdır
Bu da anam.
Mən də ki, yerdə qalanam.



Ay ana, sənin balanam
Ay ata, sənin balanam.
Çeçələyəm, çeçələyəm
Mən anamın saçlısıyam.
Mən atamın keçəliyəm.
Mən nənəmin dadlısıyam
Mən babamın dəcəliyəm.

### BAĞDA

Gecə bağa
Kim nə atdı?
Tappıltı
Məni oyatdı.
Tap, tap, tap
Bağa qaçdım.
Çatan kimi
Sirri açdım.
Ağacdan alma
Düşmüşdü.
Almalar
Sarı kişmişdi.
Yığdım cib-cib
Qucaq-qucaq.
Alma hamıya
Catacaq.

### GİLASLAR

Budaqlardan
Sırğa kimi
Asılan ağ
Gilaslarıq.
Nə qurdluyuq
Nə çürüyük.
Biz sappasağ
Gilaslarıq.
Yağış yağıb
Bizi yuyub.
Yeyən yeyib
Doyan doyub.
Quşlar qonub
Dimdikləyib.
Yanağımızı
Çimdikləyib.
Siz də yeyin
Ay uşaqlar.
Bu da sizə
Pay, uşaqlar.

### BU SİÇAN

Bu siçan həmin siçandır
Qonşu pişikdən qaçandır.
Ay huyruğu, huyruğu
Dalınca gəzir quyruğu.
Quyruğu ilişdi kola.
O da çəkir sağa, sola.
Ay huyruğu, huyruğu
Kolda qalıbdır quyruğu.
Gedin çağırın babanı,
Meşəbəyini, çobanı.
Qoy gəlsin əlində mişar
Kolu kəssin... xışş, xarrr
Xışşş, xarrr, xışşş, xarrr...
Ay huyruğu, huyruğu
Koldan açıldı quyruğu.
Quyruğundan tutdu pişik
-Hopp, - eləyib uddu pişik.

### AY, SAĞSAĞAN

-Ay, sağsağan, hardaydın?
-Kənddəydim.
Mən bir yaman dərddəydim.
Səhər tezdən ocaq çatdım.
Ocağıma odun atdım.
Sonra qaçıb inək sağdım.
Tez bir qazan süd qaynatdım.
Düyü tökdüm, yağ qaldı.
Düyü bişib yumşaldı.
Pay çəkdim qocaya,
Yaşlıya, cavana.
Bir yerə boylandım
Bir də ki, tavana.
Baxdım boş çömçəyə
Ondan da boş qazana.
Yadıma düşdü ki,
Salmadım duz ona.
Ay aman, salmadım duz ona...

### SAMANLIQDA XORUZ YATIB

Samanlıqda yatıb xoruz
Samana bərk batıb xoruz.
Samandan görünür başı
Qapqaradır gözü-qaşı.
-Tez çıx içindən samanın,
Yaman az qalıb zamanın.
İndi açılacaq səhər
Samanlıqdan dur birtəhər.
Banla oyat bütün kəndi
Ay kəndin şəkəri, qəndi.

### KÖTÜK

- Çəməndəki kötüyə bax.
Elə bil gəlibdir qonaq.
Nə bar verir, nə də bəhər
Yatır axşam, durur səhər.
Dincəlməyə kölgəsi yox
Çiçəyi yox, meyvəsi yox.
Nə qoymaq olur sobaya,
Nə də çomaqdır babaya.
Çox saydım, yoruldum düzü
Ötürdüm günü-gündüzü.
Oturub dincimi aldım
Qəfildən yadıma saldım.
Bu kötük necə rahatdır
Durmuram neçə saatdır.
Günəş kimi girdədir o
Nə yaxşı ki, yerdədir o.
Nə düz, nə də ki, əyridir
Bu da kötüyün xeyridir.

### MYO, MYO, MİYƏFTƏNİ

- Myo, myo, miyəftəni
Kim aparıbdır küftəni?!
- Beli qara xallı pişik
Ağ pişik, sığallı pişik.
Bəlkə küftə kürəndədir
Dünən evə girəndədir.
Bəlkə Məstanın işidir
Bu ki, onun vərdişidir?!
Küftə qara pişikdədir
O, dünəndən keşikdədir.
Yatıb, gözləri bağlıdır
Baxın, bığları yağlıdır.
Oğru bu qara pişikdir
Yaman avara pişikdir.
Myo, myo, miyəftəni
Bu pişik aparıb küftəni.



### KÖRPÜDƏN KEÇİRDİ KEÇİ

Keçi yenə keçir çayı
Var o tayda yonca payı.
O taya gedən körpüdür
Keçi körpünü tərpədir.
Bir az dəcəl, bir az şəndir.
Bir azca küyə düşəndir.
Bir az titrəyir ayağı
Yeriyir topalsayağı.
Var bir azacıq yuxusu
Bir azacıq da qorxusu.
Bir azca da qarnı acdır.
Yazıq keçi naəlacdır.
Gərək o, keçsin ki, çayı
Çatsın ona yonca payı.
Tap... turup, tap... turup.
Və guruppp, guppp, gupp
Ay haray, keçi çaydadır
Nə o tay, nə bu taydadır.
Çox pis oldu işin sonu
Tez çaydan çıxardın onu.

### AY İLBİZ, İLBİZ, İLBİZ

-Ay ilbiz, ilbiz, ilbiz
Yolu üstə zərli iz.
Evindən çıx gəl bizə
Biz çay süzək ilbizə.
Ay ilbiz, ilbiz, ilbiz
Səni gözləyirik biz.
İlbiz dedi: - Siz gəlin
Öz də bir az tez gəlin.
Baxmayın dardır yerim
Dostlara vardır yerim.
Dəmdədir çay da, aş da
Bişirilib lavaş da.
İlbizin evi burma
Gəz bu evi, oturma.
- Ay ilbiz, ilbiz, ilbiz
Yemək ver, çox açıq biz.

### OYUN

Evcik qurmuşdu
İki soxulcan.
Bəzəkli idi
Evcikdə hər yan.

Gəlincikləri
Böcəklər idi.
Çarpayıları
Ləçəklər idi.



Evciyin iki
Eyibi vardı.
Bir az qaranlıq
Bir az da dardı.

### İŞIQFOR

Yatmaq istədi
Bir gün işıqfor.
Dedi:-Yatmasam,
Olacağam kor.
Gözlərin yumub
Xoruldadı o.
Nə işıq saçdı,
Parıldadı o.
Yuxusu yaman
Şipşirin idi.
Külək əsirdi
Çox sərin idi.
Qəfildən yuxu
Gördü işıqfor.
Gördü ki, dolub
Maşınlarla yol.
Maşınlar ona
Deyirlər laylay.
Göydən onlara
Yol göstərir Ay.
Gah yaşıl olur
Gah da qırmızı.
Maşınlar Aydan
Qalıblar razı.
Şütüyüb ötür
Onlar həvəslə.
Nəğmə deyirlər
Çox hündür səslə:
-Yat, işıqfor, yat
Gözəldir həyat.
Açıqdır yollar
Səmada Ay var.
Aydan bizlərə
İşıqlı pay var.
Səksənib durdu.
Bu an işıqfor.
Gördü ki, dolub
Maşınlarla yol.
Yandı gözləri
Yaşıl, qırmızı.
Maşınlar ondan
Qaldılar razı.

### DƏLƏ KÜKNAR BƏZƏYİR

Öz kiçik koğuşuna
Küknar gətirib dələ.
Şütüyür koğuş boyu
Dələ belədən-belə.

Bəzəyir küknarını
Dələ ağ göbələklə.
Altını döşəyibdir
Quru otla, lələklə.

Qaçıb, qonşu dovşandan
Yerkökü alıb dələ.
Qoz-fındıq da asacaq
Küknarından o hələ.

Dələnin səsi alıb
Koğuşu öz başına.
Küknarı göstərəcək
Öz məktəb yoldaşına.



### KEÇİ GƏLİR QAÇA-QAÇA

Keçi gəlir qaça-qaça
Buynuzları qoşa haça.
Kim içməsə şorbasını
Kim incitsə babasını.
Kim həyətə zibil atsa
Kim gec durub,
Kim gec yatsa.
Keçi ona kəllə atar.
Ha-ha-ha, ha-ha-ha
Buynuzu kötüyə batar
Ha-ha-ha, ha-ha-ha.
Sən tez içərsən şorbanı
Sən incitməzsən babanı.
Sən həyəti süpürərsən
Sən zibili götürərsən.
Sən hamıdan tez durarsan
Sən gecə mürgü vurarsan.
Keçinin buynuzu haça
Kötük tutub, qoymur qaça.
Ay, kötüyü yaran gəlsin
Keçini qurtaran gəlsin.

### AĞACDƏLƏN

Tra-ta-ta, tra-ta-ta
Kimdir o, minib ata?!
Tra-ta-ta, tra-ta-ta
Qoymur meşəni yata.

Tra-ta-ta, tra-ta-ta
Heç kəs minməyib ata.
Ağacdələndir, qoymur
Bütün meşəni yata.

### DƏLƏ

Arabada gedir dələ
Hamıya əl edir dələ.
Bir araba qoz aparır
Nə istiot, duz aparır.

- Al bu sənin, bu da sənin
Bu qarğanın, bu sərçənin.
Ay qaranquş, gəl qoz götür
Bunu da leyləyə ötür.

Bu ördəyin, bu dovşanın
Bu ikisi də Məstanın.
Al üçünü Toplana ver
Canavara, aslana ver.

Bu ayının, bu da atın
Qoz qurtardı, gəlin çatın.
Ətəyimdə qalıb üçü
Növbəyə dur, cığal keçi.

Əvvəl dəvə, sonra camış
Camışın ağzında qamış.
Bu qoz çatacaqdır qaza
Qaz qozu saxlasın yaza.

### ŞİMŞƏK

Gecə vaxtı
Şimşək çaxdı.
Şaraq-şaraq.
Səma oldu
Zolaq-zolaq.
Sərçəciklər
Pırrr elədi.



Ala köpək
Mırrr elədi.
Qaz qorxdu
Şimşək səsindən.
Qız qorxdu
Şimşək səsindən.
Uçan oldu
Qaçan oldu.
Hamı qorxaq
Siçan oldu.
O saat elədi yağış.
Gur yağdı
Çilədi yağış.

### XƏSTƏLƏNİB PİŞİYİM

Xəstələnib pişiyim
Günahkar olmuşam mən.
Çimdirmişəm vannada
Pişiyimi mən dünən.

Sonra da oynamışam
Onunla yelçəkəndə.
Sən demə, xəstələnir
Pişik də yel çəkəndə.

İndi hərarəti var
Səhərədək yatmayıb.
Nə qədər eləmişəm
Bir həb belə atmayıb.

Pəncəsinin altında
Gizlədibdir başını.
Gərək atım bu gündən
Dəcəlliyin daşını.

Xəstələnib pişiyim
Günahkar olmuşam mən.
Çimdirmişəm vannada
Pişiyimi mən dünən.

### NAĞIL

Nağıl deyir
Kirpi ana.
Bapbalaca
Balasına.
Qorxuludu
Nağıl yaman.
Bəhs edir o
Canavardan.
Gözlərini
Döyür kirpi.
- Ana, bəsdir, -



Deyir kirpi.
- Oğul, sona
Çatmışam mən.
Üç alma
Düşəcək göydən.
Nə almadan
Götürdü o.
Nə almanı
Ötürdü o.
Tez başını
Atdı kirpi.
Gözün yumub
Yatdı kirpi.

### ELƏ PAYIZ GƏLƏNİ

Payız gəlib, günəşdən
Borc alıb sarı donu.
Küləklər gətiriblər
Qolları üstə onu.

Yarpaqlardan rəngbərəng
Çələngi var başında.
Dəcəlliyindən qalmır
O hələ bu yaşında.

Almalardan boynunda
Yaqut boyunbağı var.
Atını oynatdığı
Bağçası var, bağı var.

Qızıl sapla işlənib
Yaylığının yeləni.
Əl-ayaq çəkilibdir
Elə payız gələni.